UOT 327;339.9
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.235

# AVROPADA ENERJİ TƏHLÜKƏSİZLİYİNİN YENİDƏN AKTUALLAŞMASI FONUNDA AZƏRBAYCAN ENERJİ RESURSLARININ ƏHƏMİYYƏTİ

**ƏSGƏR ƏSGƏROV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
*E-mail: askeraskerovv222@gmail.com*

2014-cü ildə Rusiya və Ukrayna arasında münasibətlər ciddi şəkildə gərginləşdi və bu gərginlik sonda silahlı müdaxiləyə gətirib çıxardı. Bu hadisələrin səbəblərini anlamaq üçün əvvəlcə Rusiya ilə Ukrayna arasında yaranan ziddiyyətlərə diqqət yetirmək vacibdir. Rusiyanın niyə məhz 2014-cü ildə Ukraynaya qarşı aqressiv mövqe tutmağa başladığını araşdırsaq, həm həmin dövrdəki hərbi müdaxilənin, həm də bu gün davam edən Rusiya-Ukrayna münaqişəsinin səbəblərini daha yaxşı anlaya bilərik. Tarixi perspektivdən baxıldıqda, Ukrayna əvvəlcə Rusiya İmperiyasının, sonralar isə Sovet İttifaqının tərkibində olmuşdur. Bu iki ölkə arasında dərin tarixi əlaqələr mövcuddur və Ukraynanın Krım və Şərqi Ukrayna bölgələrində xeyli sayda etnik rus yaşayır. Bununla yanaşı, hərbi müdaxiləyə birbaşa təkan verən hadisə 2013-cü ilin sonlarında başlanan Avromaydan etirazları idi. Həmin etirazlar o dövrdə prezident olan Viktor Yanukoviçin Avropa İttifaqı ilə Assosiasiya Sazişi imzalamaqdan imtina edərək Rusiya ilə daha sıx əlaqələr qurmağa üstünlük verməsindən sonra meydana çıxmışdı. Bu etirazlarda əsasən Avropapərəst qüvvələr və Yanukoviç əleyhdarları iştirak edirdi. Onlar hökumətdən demokratik islahatların həyata keçirilməsini və Qərblə daha sıx inteqrasiyanı tələb edirdilər.

2014-cü ilin fevralında etirazlar kəskinləşdi və Yanukoviç paytaxt Kiyevdən qaçmağa məcbur oldu, nəticədə yeni bir hökumət hakimiyyətə gəldi. Rusiyanın bu hakimiyyət dəyişikliyinə reaksiyası çox sərt oldu; rəsmi Moskva bu dəyişikliyi Ukraynanı Aİ və NATO-ya cəlb etmək məqsədilə Qərbin dəstəklədiyi bir hərəkət kimi qiymətləndirdi. Rusiyanın hərbi müdaxiləsi Ukraynanın Krım bölgəsinin sürətlə ilhaq edilməsi ilə başladı. Bu, mübahisəli bir referendumun keçirilməsindən sonra baş verdi; həmin referendumda seçicilərin əksəriyyəti Krımın Rusiyaya birləşməsini dəstəkləmişdi. Krımın ilhaqı beynəlxalq ictimaiyyət tərəfindən geniş şəkildə qınandı və bir çox Qərb ölkəsi bu addımı tanımaqdan imtina etdi.

Krımın ilhaqı ilə paralel olaraq, Ukraynanın şərqində, xüsusən də Donetsk və Luqansk bölgələrində Rusiyayönümlü separatçı qruplar meydana çıxdı. Rusiya bu separatçı qüvvələrə silah, şəxsi heyət və digər dəstək vasitələri təmin etməkdə ittiham olundu. Nəticədə, bu münaqişə genişmiqyaslı müharibəyə çevrildi, ciddi insan itkisinə və çox sayda insanın məcburi köçkün düşməsinə səbəb oldu [2].

**Rusiya-Ukrayna müharibəsinin Avropada enerji böhranına təsirləri**

Rusiyanın hərbi müdaxiləsini bir neçə əsas amil formalaşdırdı. Rusiya Ukraynanın Avropa İttifaqı (Aİ) və NATO ilə mümkün birləşməsini öz milli maraqları üçün birbaşa təhlükə kimi qiymətləndirirdi. Xüsusilə, NATO-nun Şərqi Avropada genişlənməsi və Ukraynanın bu alyansa qoşulma ehtimalı Moskvanın ciddi narahatlığına səbəb olmuşdu. Bununla yanaşı, Ukrayna Rusiya təbii qazının Avropaya ixracı üçün vacib bir tranzit marşrutu rolunu oynadığı üçün Moskva Ukraynada təsirini saxlamağa strateji əhəmiyyət verirdi. Eyni zamanda, Qara dəniz bölgəsi, o cümlədən Krım yarımadası Rusiya üçün strateji baxımdan böyük əhəmiyyət daşıyırdı.

Millətçilik və "Rus dünyası" (Русский Мир) ideologiyası da Rusiyanın Ukraynada yaşayan etnik rusları və rusdilli əhalini müdafiə etmə haqqındakı iddialarını formalaşdıran mühüm faktorlardan biri idi. Rusiya Prezidenti Vladimir Putin bu dövrdə daxili təzyiqlərlə üzləşdiyi üçün millətçi xarici siyasət yürüdərək öz siyasi reytinqini gücləndirmək üçün çalışırdı. Ukrayna böhranı qəbul edilən xarici təhlükə ətrafında daxili dəstəyi birləşdirmək imkanı təqdim etdi. Nəticə etibarilə, 2014-cü ildə Rusiyanın Ukraynaya qarşı hərbi müdaxiləsi tarixi, geosiyasi və daxili amillərin kompleks qarşılıqlı təsiri nəticəsində meydana gəldi. Ukrayna böhranı Rusiyanın Qərblə münasibətlərində dönüş nöqtəsi oldu və regional, eləcə də qlobal təhlükəsizliyə geniş təsirlər göstərdi. Bu təsirlər bu gün də davam edir. Böhranın mühüm aspektlərindən biri Rusiyanın Krımdakı hərəkətlərinə cavab olaraq, Qərb dövlətlərinin Rusiyaya qarşı geniş iqtisadi sanksiyalar tətbiq etməsi idi. Bu sanksiyalar Rusiya iqtisadiyyatının enerji, maliyyə və müdafiə sektorları kimi əsas sahələrini hədəf aldı və məqsəd Rusiyaya Ukraynadakı siyasətini dəyişdirmək üçün təzyiq göstərmək idi. Bu dövrdə münaqişəni dayandırmaq üçün bir neçə atəş-

kəs cəhdi göstərildi, o cümlədən Minsk Protokolları (sentyabr 2014 və fevral 2015) imzalandı, bu da münaqişəyə sülh yolu ilə həll tapmaq üçün çərçivə yaratmağı nəzərdə tuturdu.

Böhran həmçinin NATO-Rusiya münasibətlərinə ciddi təsir etdi. NATO Rusiya ilə bütün praktiki əməkdaşlığa son qoydu və alyansın Şərqi Avropadakı mövcudluğunu artıraraq bölgədəki üzv dövlətlərin təhlükəsizliyini təmin etməyə çalışdı. Məsələn, 2017-ci ildə Çernoqoriya NATO-ya üzv oldu. Rusiya isə NATO-nun bu addımlarını öz təhlükəsizliyinə qarşı təhdid kimi qiymətləndirdi. Avropa İttifaqı da Rusiyaya qarşı sanksiyalar tətbiq etdi və "seçici iştirak" siyasətini qəbul etdi; yəni Aİ bəzi məsələlərdə, məsələn, İranın nüvə razılaşması kimi mövzularda Rusiya ilə dialoqu davam etdirirdi, lakin ümumi münasibətlər gərgin olaraq qalırdı.

Rusiyanın Ukraynaya qarşı hərəkətlərinə cavab olaraq Səkkizlər Qrupu (G8), Rusiyanın bu təşkilatdakı üzvlüyünü dayandırdı və bununla da Rusiya bu beynəlxalq iqtisadi və siyasi əməkdaşlıq forumundan praktiki olaraq təcrid olundu. Böhran eyni zamanda Ukraynanın Aİ və Qərb ilə daha sıx əlaqələr qurmasına səbəb oldu. Ukrayna Aİ ilə Assosiasiya Sazişi imzaladı və demokratik islahatların həyata keçirilməsi və təsisatların gücləndirilməsi istiqamətində addımlar atmağa başladı [2].

Rusiya uzun müddətdir ki, Avropanın ən böyük təbii qaz, neft və kömür təchizatçılarından biri kimi çıxış edir. 2021-ci ildə Avropa İttifaqının (Aİ) təbii qaz tələbatının təxminən 40%-i Rusiya tərəfindən təmin edilirdi. Eyni zamanda, neftin 27%-i və kömürün 46%-i də Rusiyadan idxal edilirdi. Bu rəqəmlər, Avropanın enerji təchizatı baxımından Rusiyaya olan asılılığını açıq şəkildə göstərir [8].

Rusiya-Ukrayna müharibəsinin başlaması ilə Avropa enerji bazarlarında ciddi problemlər meydana çıxdı. Rusiya tərəfindən qaz tədarükünün məhdudlaşdırılması Avropa ölkələrinin enerji qiymətlərində kəskin artıma səbəb oldu. Məsələn, 2022-ci ilin yayında təbii qazın qiyməti, bir il əvvəlki dövrlə müqayisədə təxminən 300% artmışdır. Eyni zamanda, neftin və elektrik enerjisinin qiymətləri də kəskin şəkildə yüksəlmişdir [8].

Avropa ölkələri Rusiyaya olan enerji asılılığını azaltmaq məqsədilə alternativ enerji mənbələrinə yönəlməyə başlamışdır. Avropa Komissiyası 2022-ci ildə "REPowerEU" adlı yeni bir enerji strategiyasını elan etmişdir. Bu strategiya çərçivəsində Avropa 2030-cu ilə qədər təbii qaz idxalını 155 milyard kubmetrdən 100 milyard kubmetrə azaltmağı və yenilənə bilən enerji mənbələrindən əldə edilən enerjinin payını artırmağı planlaşdırır [10].

Rusiya-Ukrayna müharibəsi Avropada yenilənə bilən enerji sektorunun inkişafına təkan vermişdir. 2022-ci ilin sonunda Aİ ölkələri ümumi enerji istehlakında günəş, külək və digər yenilənə bilən mənbələrin payını artıraraq 37%-ə çatdırmışdır. Bununla yanaşı, enerji səmərəliliyi sahəsində də müxtəlif tədbirlər həyata keçirilmişdir. Məsələn, Almaniya, enerji səmərəliliyi proqramlarına 2 milyard avrodan çox sərmayə yatırmışdır [9].

Enerji böhranı Avropada siyasi və iqtisadi tarazlığı dəyişdirmişdir. Rusiya, Avropa ölkələri ilə enerji tədarükü müqavilələrində təzyiq vasitəsi kimi təbii qazdan istifadə etmişdir. Bu, Aİ-nin Rusiyaya qarşı sərt sanksiyalar tətbiq etməsinə səbəb olmuşdur. Eyni zamanda, Avropa ölkələri arasında enerji təhlükəsizliyi və enerji əməkdaşlığı məsələlərində yeni dialoqlar başlamışdır.

**Azərbaycan Avropanın enerji böhranında önəmli alternativ kimi**

2023-cü ildə SOCAR "Azəri-Çıraq-Günəşli" (AÇG), "Qarabağ" yataqları və Bakı-Tbilisi-Ceyhan (BTC) layihəsi üzrə Norveçin "Equinor" şirkətinə məxsus iştirak paylarını əldə etdi. Bu barədə artıq sənədlər də imzalanıb. Əldə edilənə qədər, "Equinor" AÇG neft yataqlarında 7,27 %, BTC boru kəmərində 8,71 % və "Qarabağ" yatağında 50 % iştirak payına malik idi. SOCAR-ın iştirak payları isə AÇG-də 25 %, BTC-də 25 % və "Qarabağ" yatağında 50 % təşkil edirdi. Bunun nəticəsində, Azərbaycan neft-qaz nəhəngi AÇG-də payların dörddə birinə, BTC-də isə payların üçdə birindən çoxuna sahib oldu. Neft-qaz sahəsində aktivlərin satışına baxmayaraq, "Equinor" SOCAR ilə dekarbonizasiya və "yaşıl enerji" sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalayıb [1].

2023-cü ilin uğurlarından biri də AÇG neft yatağındakı "Qərbi Azəri" platformasından bir milyardıncı barel neftin hasil edilməsidir. Şirkətin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda hasilat üzrə vitse-prezidenti Elxan Məmmədov bu əlamətdar hadisəni paylaşaraq bildirib ki, bu, ümumi neft hasilatında 1 milyard barel xəttini keçən ikinci AÇG platformasıdır və artıq ikinci milyard barelin yolundadır. İlk dəfə bu mərhələyə çatan platforma isə "Mərkəzi Azəri" olmuşdur. "Mərkəzi Azəri" 2021-ci ilin iyul ayında bu xətti keçmişdir. Qeyd etmək lazımdır ki, "Qərbi Azəri" Xəzər dənizində AÇG yatağının yeddi hasilat platformasından biridir. 1997-ci ilin noyabrın-

da AÇG-dən ilk neft əldə olunandan bəri ümumilikdə çıxarılmış 4,3 milyard barel neft hasilatına bu platformanın əhəmiyyətli töhfəsi olmuşdur [1].

Avropa İttifaqı və Balkan ölkələri ilə Azərbaycan arasında əlaqələr sürətlə intensivləşir. Avropa Qonşuluq Siyasəti, Şərq Tərəfdaşlığı Proqramı və Cənub Qaz Dəhlizi Azərbaycanın Avropaya gələcək inteqrasiyasına töhfə verən əsas elementlərdir. Beləliklə, uzun illərdən sonra Avropa İttifaqı ümumi enerji siyasəti istiqamətində mühüm addım atmışdır. TAP və TANAP layihələri ilə Avropanın bir çox regionlarını enerji ilə təmin edir və tək mənbədən asılılığı azaldır, Avropanın enerji təhlükəsizliyini təmin edəcək ən mühüm şeyə gətirib çıxarır [3].

Digər tərəfdən, Rusiya maneələr yaratmaqla Aİ-nin yeni mənbələrdən təbii qaz almasına mane olmağa çalışır. Bu maneələr geosiyasi sferada hadisələrin gedişindən asılı olaraq dəyişir. Bu məqamda Azərbaycan əsas ölkə rolunu oynayır və Qara dəniz ölkələrinin enerji resurslarının müxtəlifliyinin artırılmasında böyük əhəmiyyət kəsb edir. Bu baxımdan, Rusiya ilk mərhələdə mənfi şərhləri ilə Cənub Qaz Dəhlizinin reputasiyasına xələl gətirməyə çalışır. Eyni zamanda, Azərbaycan və Türkmənistanın enerji ixracı infrastrukturunun əsasını təşkil edəcək Transxəzər boru kəməri Rusiyanın maraqlarına ziddir. Rusiyanın növbəti addımları iri-miqyaslı geosiyasi manevrlərlə layihənin hər hansı inkişafının qarşısını ala bilər. Lakin Azərbaycanın Cənubi Qafqazda əhəmiyyətinin artması və 2020-ci ildə TAP kəməri ilə ilk təbii qazın nəqlinə başlaması rusları çətin vəziyyətə salıb.

2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində TAP-ın təməlqoyma mərasimi keçirilib. TAP fəaliyyətə başladıqdan sonra Bolqarıstanın qaz ehtiyacının 33%-ni, Yunanıstanın 20%-ni və İtaliyanın 10,5%-ni ödəyir. BP, İtaliyanın SNAM və Azəri SOCAR hər biri 20 faiz payla üç əsas investordur. TAP Cənub Qaz Dəhlizinin bir hissəsidir [5]. Layihənin tərəfləri hesab edirdilər ki, kəmər Avropanın enerji təhlükəsizliyini artıracaq və Rusiyadan asılılığını azaldacaq. ABŞ-ın Avropadakı enerji təhlükəsizliyi üzrə xüsusi səfiri Riçard Morninqstarın sözlərinə görə: "Azərbaycan sahillərindən kənarda regionda başqa ehtiyatlar da var. Türkmənistandan qaz idxal etmək hələ də mümkündür [6]".

Cənub Qaz Dəhlizi Aİ üçün vacib olsa da, Rusiya üçün narahatlıq doğurur. Məsələn, Qərbin dəstəklədiyi Nabukko layihəsinin müzakirə olunduğu bir vaxtda Rusiya öz təbii qazını Qara dəniz sahilində Bolqarıstana nəql etmək üçün "Cənub axını" boru kəməri layihəsinin təşəbbüskarı oldu. Bu layihə Avropa İttifaqının rəqabət qaydalarına uyğun gəlmədiyi üçün baş tutmadı və sonradan Rusiyanın "Qazprom" şirkətinin təklif etdiyi "Türk axını" boru kəməri layihəsi də uğursuzluğa düçar oldu. Rusiya bu regionda onun iştirakı olmadan qaz nəqli layihələrinə isti yanaşmır. Layihə ilə bağlı son hadisə təbii qazın nəqlinə başlanmasıdır. 2020-ci ilin oktyabrında Yunanıstan-Türkiyə sərhədindən İtaliyanın cənubundakı qəbul terminalına qədər olan TAP boru kəməri nəhayət 15 noyabr 2020-ci ildə Cənub Qaz Dəhlizinin sonuncu hissəsi olan TAP boru kəməri tamamlandı və boru kəməri vasitəsilə kommersiya fəaliyyətləri başladı [4].

Üstəlik, TAP-ın işə düşməsindən il yarım sonra başlayan Rusiya-Ukrayna müharibəsi Qara dəniz regionunda enerji ticarəti və nəqli üçün mühüm tranzit marşrutuna təsir göstərir. Xüsusilə, Azərbaycan kimi enerji istehsal edən və ixrac edən ölkələr Qara dənizdən keçən enerji nəqli marşrutlarının təhlükəsizliyindən asılıdır. Avropa İttifaqının Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar bölgədəki enerji balanslarına və ticarət əlaqələrinə əhəmiyyətli dərəcədə təsir edir. Avropa İttifaqı Rusiyanın enerji resurslarından asılılığını azaltmaq və Rusiyanın siyasətinə qarşı tarazlıq yaratmaq üçün sanksiyalar tətbiq edir. Bu sanksiyalar Avropanın enerji təchizatının təhlükəsizliyini təmin etmək səylərinin bir hissəsi kimi qiymətləndirilir. Rusiyaya qarşı tətbiq edilən sanksiyalar Avropanın alternativ enerji mənbələrinə ehtiyacını artırıb. Ona görə də Avropa İttifaqının Rusiyaya qarşı sanksiyaları nəticəsində Azərbaycanın enerji ixracı və ticarət potensialı artıb. Avropa Rusiyadan enerji asılılığını azaltmaq üçün Azərbaycan kimi alternativ enerji mənbələrinə müraciət edir.

Bu yaxınlarda Aİ Azərbaycanla 2027-ci ilə qədər Azərbaycan təbii qazının idxalını iki dəfə artırmaq üçün anlaşma memorandumu imzalayıb. Memorandumun əsas detallar aşağıdakılardır [7]:

– Qaz idxalı. Aİ 2027-ci ilə qədər Azərbaycandan qaz idxalını ildə ən azı 20 milyard kubmetrə (bcm) çatdırmağı hədəfləyir.

– Trans-Adriatik Boru Kəməri. Hazırda Azərbaycan Trans Adriatik Boru Kəməri vasitəsilə hər il 8 milyard kubmetrdən çox qaz nəql edir. Bu, 2027-ci ilə qədər 20 milyard kubmetrə qədər genişləndiriləcək.

– Təchizat təhlükəsizliyi. Azərbaycanın artan qazı idxalı Rusiya qazının tədarükünün kəsilməsini kompensasiya etməyə kömək edəcək və Avropanın təchizat təhlükəsizliyinə əhəmiyyətli dərəcədə töhfə verəcək.

– Enerji əməkdaşlığı. Aİ Azərbaycanı etibarlı enerji tərəfdaşı hesab edir və enerji sahəsində uzunmüd-

dətli və proqnozlaşdırıla bilən əməkdaşlığın vacibliyini vurğulayır. Azərbaycan qazını Aİ-yə nəql edən Cənub Qaz Dəhlizi 2020-ci ildən fəaliyyət göstərir.

– Diversifikasiya. Rusiyanın enerji təchizatını silah kimi istifadə etməyə çalışması fonunda enerji idxalının şaxələndirilməsi Aİ üçün prioritet məsələdir. Aİ liderləri Rusiyanın əksər neft idxalını bu ilin sonuna qədər dayandırmağa razı olsalar da, 2021-ci ildə Aİ-nin ehtiyaclarının təxminən 40%-ni təşkil edən Rusiya qazına birbaşa qadağa qoymayıblar.

Azərbaycan Rusiya-Ukrayna münaqişəsindən sonra çətin vəziyyətə düşmüş Qazaxıstana da yardım əlini uzatdı. Qazaxıstanın magistral neft kəməri üzrə milli operatoru olan "Kaztransoil" şirkəti Aktau limanından Bakı limanı istiqamətində "Tengiz" yatağından çıxarılan neftin ixracına başlamışdır. 2023-cü il yanvar-noyabr aylarında neft tədarükü 1 milyon 238 min tona çatmışdır. Aktau limanından Qazaxıstan neftinin ixracı 3 milyon 62 min ton təşkil etmişdir ki, bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 1 milyon 14 min ton və ya 50 % artım deməkdir. Qeyd etmək lazımdır ki, 2022-ci ildə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Transxəzər dəhlizi ilə neft nəqlinin artırılması barədə göstəriş vermişdir. Bu göstərişə uyğun olaraq, "KazMunayQaz" və SOCAR arasında "Tengiz" yatağından hasil edilən neftin Bakı-Tbilisi-Ceyhan kəməri vasitəsilə ildə 1,5 milyon ton nəqlini nəzərdə tutan saziş imzalanmışdır [1].

Nəticə olaraq qeyd edə bilərik ki, Rusiya-Ukrayna müharibəsi Avropada enerji böhranına səbəb olmaqla, enerji təhlükəsizliyi anlayışının əhəmiyyətini yenidən gündəmə gətirmişdir. Bu münaqişə Avropa ölkələrini enerji siyasətlərini yenidən nəzərdən keçirməyə və yenilənə bilən enerji mənbələrinə daha çox diqqət ayırmağa vadar etmişdir. Uzunmüddətli perspektivdə bu, Avropanın enerji müstəqilliyini artırmaq və qlobal enerji bazarında tarazlığı təmin etmək üçün mühüm bir addım olacaqdır. Müharibənin nəticələrinin tam olaraq necə olacağını zaman göstərəcək, lakin indiyə qədərki təhlillər göstərir ki, Avropa enerji sektorunda daha dayanıqlı və çevik strategiyalar tətbiq etmək üçün sürətlə hərəkət edir.

Rusiya-Ukrayna müharibəsi Avropanın enerji təchizatı sahəsində ciddi təlatümlərə səbəb olmuş və bu qitənin enerji təhlükəsizliyi məsələlərinə yenidən baxmasına təkan vermişdir. Bu vəziyyətdə Azərbaycan strateji mövqeyini gücləndirərək Avropanın etibarlı enerji tərəfdaşı kimi çıxış etməyə başlamışdır. Azərbaycanın enerji resurslarının şaxələndirilməsi və Avropa İttifaqı ilə əməkdaşlığı Avropanın Rusiya enerjisinə olan asılılığını azaltmağa və təchizat təhlükəsizliyini artırmağa kömək edir.

Azərbaycanın iştirak etdiyi Cənub Qaz Dəhlizi, TAP və TANAP layihələri, enerji resurslarının Qərbə təhlükəsiz və dayanıqlı şəkildə nəqlini təmin edərək, Avropanın enerji böhranına qarşı dayanıqlı həll yolu təklif edir. Bu layihələr yalnız enerji təchizatını diversifikasiya etmir, eyni zamanda, Avropa və Qafqaz regionu arasında siyasi və iqtisadi əlaqələrin möhkəmlənməsinə də səbəb olur. Nəticədə, Azərbaycanın enerji potensialı və strateji layihələri Avropanın enerji təchizatı xəritəsində mühüm bir alternativ olaraq önə çıxır və qlobal enerji balanslarına mühüm təsir göstərir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Zeynallı, O. Azerbaycan enerji politikaları petrol ve petrol dışı sektör ekonomik analiz. İstanbul: İstanbul Üniversitesi, 2023. 146 s.*

2. *Stent, A. Putin's World: Russia Against the West and with the Rest. New York: Twelve Press, 2019. 448 pages.*

3. *https://www.amerikaninsesi.org/a/tap-layihesi/3345986.html*

4. *https://aircenter.az/az/single/tap-layihesi-ise-dusdu-521*

5. *https://www.enerjigunlugu.net/tapin-proje-finansmani-tamam-30636h.htm*

6. *https://www.aa.com.tr/en/economy/turkey-to-benefit-from-many-gas-supplies-best-prices-/1409431*

7. *https://www.euractiv.com/section/energy/news/eu-signs-deal-to-double-gas-imports-from-azerbaijan-by-2027/*

8. *https://energytransition.org/2024/06/fuelling-change-europes-battle-against-russian-fossil-fuels/#:~:text=Amidst%20the%20fallout%20of%20the,and%20banning%20Russian%20oil%20imports*

9. *https://www.cleanenergywire.org/news/germany-sets-binding-2030-target-energy-consumption-reduction*

10. *https://www.wwf.eu/?6622916/REPowerEU-A-good-plan-marred-by-a-few-really-bad-ideas*


## XÜLASƏ


Məqalədə vurğulanır ki, Azərbaycanın enerji resursları Rusiya-Ukrayna müharibəsi fonunda Avropanın enerji təhlükəsizliyi baxımından strateji əhəmiyyət kəsb edir. Bu münaqişə Avropa ölkələrini enerji siyasətlərini yenidən nəzərdən keçirməyə və alternativ enerji mənbələrinə yönəlməyə vadar etmişdir. Av-

ropanın enerji təminatında uzun illər boyunca böyük rol oynayan Rusiya hərbi müdaxiləsi və enerji tədarükündən təzyiq vasitəsi kimi istifadə etməsi nəticəsində Avropanın etibarlı təchizatçısı olaraq etibarını itirmişdir. Bu vəziyyətdə Azərbaycan strateji enerji resursları və infrastruktur layihələri, xüsusən də Cənub Qaz Dəhlizi, TAP və TANAP vasitəsilə Avropaya etibarlı və dayanıqlı enerji təminatçısı kimi önə çıxır. Azərbaycanın neft-qaz ixracatı Avropanın enerji təchizatının şaxələndirilməsinə və Rusiya enerji asılılığının azaldılmasına kömək edir. Azərbaycan həmçinin Avropa ilə enerji əməkdaşlığını genişləndirmək üçün müxtəlif strateji sazişlər imzalayaraq Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə töhfə verir. Beləliklə, Azərbaycanın enerji potensialı və strateji mövqeyi, Avropanın enerji təhlükəsizliyi səylərində mühüm rol oynayır və bu ölkənin qlobal enerji bazarında əhəmiyyətli oyunçu olmasını təmin edir.

**Açar sözlər:** *Cənub Qaz Dəhlizi, Enerji təhlükəsizliyi, Azərbaycan neft-qaz resursları, TAP və TANAP layihələri, Rusiya-Ukrayna müharibəsi.*

**Аскер Аскеров**

**ВАЖНОСТЬ АЗЕРБАЙДЖАНСКИХ ЭНЕРГОРЕСУРСОВ НА ФОНЕ ВОЗОБНОВЛЕНИЯ АКТУАЛИЗАЦИИ ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ В ЕВРОПЕ**

**РЕЗЮМЕ**

В статье подчеркивается, что энергетические ресурсы Азербайджана приобретают стратегическое значение для энергетической безопасности Европы на фоне российско-украинской войны. Этот конфликт заставил европейские страны пересмотреть свою энергетическую политику и обратить внимание на альтернативные источники энергии. Россия, которая в течение многих лет играла важную роль в обеспечении Европы энергией, утратила репутацию надежного поставщика из-за своего военного вмешательства и использования энергоресурсов в качестве инструмента давления. В этой ситуации Азербайджан, обладающий стратегическими энергетическими ресурсами и инфраструктурными проектами, такими как Южный газовый коридор, ТАР и TANAP, выступает в качестве надежного и устойчивого поставщика энергии для Европы. Экспорт нефти и газа из Азербайджана способствует диверсификации энергетических поставок Европы и снижению зависимости от российских энергоресурсов. Азербайджан также подписывает различные стратегические соглашения с Европой для расширения энергетического сотрудничества, что вносит вклад в обеспечение энергетической безопасности Европы. Таким образом, энергетический потенциал и стратегическое положение Азербайджана играют важную роль в усилиях Европы по обеспечению энергетической безопасности и позволяют этой стране быть значимым игроком на мировом энергетическом рынке.

**Ключевые слова:** *Южный газовый коридор, энергетическая безопасность, энергетические ресурсы Азербайджана, проекты ТАР и TANAP, российско-украинская война.*

**Asker Askerov**

**THE IMPORTANCE OF AZERBAIJANI ENERGY RESOURCES IN LIGHT OF THE RE-ACTUALIZATION OF ENERGY SECURITY IN EUROPE**

**SUMMARY**

Theurope's energy security against the backdrop of the Russia-Ukraine war. This conflict h article emphasizes that Azerbaijan's energy resources have strategic importance for Eas compelled European countries to reconsider their energy policies and focus on alternative energy sources. Russia, which has played a significant role in Europe's energy supply for many years, has lost its reputation as a reliable supplier due to its military intervention and use of energy resources as a tool for pressure. In this situation, Azerbaijan, with its strategic energy resources and infrastructure projects, particularly the Southern Gas Corridor, TAP, and TANAP, emerges as a reliable and sustainable energy supplier for Europe. Azerbaijan's oil and gas exports contribute to diversifying Europe's energy supply and reducing dependence on Russian energy. Azerbaijan also signs various strategic agreements to expand energy cooperation with Europe, thereby contributing to Europe's energy security. Therefore, Azerbaijan's energy potential and strategic position play a crucial role in Europe's efforts to ensure energy security and enable the country to be a significant player in the global energy market.

**Keywords:** *Southern Gas Corridor, Energy security, Azerbaijan oil and gas resources, TAP and TANAP projects, Russia-Ukraine war.*